The Chemical Company

# MASTERTOP® 1326 (2,0-2,5 mm)

## Poliuretan əsaslı özühamarlanan dekorativ döşəmə sistemi

### Təsviri

**MASTERTOP® 1326** - hamar səthli döşəmələrin örtülməsi üçün nəzərdə tutulmuş özüyayılan poliuretan material sistemidir, rahat döşəmə yaradır, səsi udma xassəsinə malikdir və UB şüalara davamlıdır.

### Tətbiq sahələri

- Butiklər,
- Diskotekalar,
- Barlar və restoranlar,
- Uşaqlar üçün oyun meydançaları,
- Konfrans-zallar,
- Ofislər.

### Üstün cəhətləri

- Sadə yolla istifadə edilir.
- Yüksək yapışma (adgeziya) qabiliyyətinə malikdir.
- UB şüalara davamlıdır, saralmır.
- Bakterisid səthə malikdir.
- Asan təmizlənərək gigiyenik mühit yaradır.
- Çat yerləri bərpa edə bilir.
- Elastikdir.
- Hərəkət zamanı rahatlıq hissi yaradır.
- Səsi udur.
- Yüksək mexaniki möhkəmliyə malikdir.
- Çox zəhmət tələb edən qulluğa və təmizləməyə ehtiyac yaratmır.
- Rənglərin qarışmasına səbəb olmur.

### Diqqət yetirilməsi vacib olan hallar

- İş zamanı ətraf mühitin və səthin temperaturu +10ºS-dən aşağı düşdüyü və yaxud +30ºS-dən yuxarı qalxdığı halda temperaturun münasib olduğu vaxta qədər gözləmək lazımdır. Bundan başqa, çox isti, yağışlı və ya küləkli hava şəraitində işləmək məsləhət görülmür.
- Normal hava şəraitində material 1 – 2 gün qabaqcadan iş yerinə gətirilməlidir ki, onun temperaturu ətraf mühitin temperaturu ilə bərabərləşsin.
- Şaxtalı havada materialın və işlənən səthin temperaturu qızdırıcıların vasitəsilə işlək temperatur həddinə qədər qızdırılmalıdır və bu məqsədlə qablamada olan material +20 - +25$^0$S temperaturadək qızdırılmalıdır.
- Epoksid və poliuretan əsaslı döşəmələrin sərilməsi əməliyyatlarını ancaq təcrübəli mütəxəssislərə həvalə etmək lazımdır.
- Reaksiya müddətləri və qatran sistemlərinin təsiri ətraf mühitin və işlənən əsasın temperaturundan, həmçinin, havanın nisbi rütubətindən asılıdır. Aşağı temperaturda reaksiya ləngiyir və nəticədə qabda olan materialın iş və saxlanma müddəti uzanır. Yüksək temperaturda reaksiya sürətlənir və yuxarıda göstərilən müddətlər müvafiq olaraq qısalır. Materialın quruyaraq normal bərkimiş vəziyyətə düşməsi üçün ətraf mühitin və işlənən əsasın temperaturu icazə verilən minimal həddən aşağı düşməməlidir. Döşəmə serildikdən sonra material 24 saat ərzində su ilə birbaşa təmasdan qorunmalıdır. Su ilə təmasda olduğu halda materialın səthi karbonatlaşmağa başlayacaq və bu da onun xassələrinin itməsinə səbəb olacaqdır. Belə halda material əsasın üzərindən tamamilə götürülməli və yenisi ilə əvəz olunmalıdır.

### Sistem haqqında ətraflı məlumat

| Məqsədli təyinatı | İstifadə edilən materiallar | Sərf (kq/m$^2$) |
|---|---|---|
| Astar | **MASTERTOP® P 677 Z (CONIPOX® 77Z)** | 0,30 - 0,50 |
| Səpələmə qum | Kvarslı qum 0,1 - 0,3 və ya 0,3 – 0,8 mm | 0,80 - 1,00 |
| Alternativ astar *(səthdə 1mm-ə qədər qüsurlar üçün)* | **MASTERTOP® P 677 Z** (kvarslı qum qatışığı ilə 1/0,5 – ½ çəki nisbətində istifadə olunur) | 0,30 - 0,50 |
| Aşqar qum | Kvarslı qum 0,1 - 0,3 mm və ya **MASTERTOP® 1200** aşqar F1a | 0,15 - 2,00 |
| Səpələmə qum | Kvarslı qum 0,1 - 0,3 və ya 0,3 – 0,8 mm | 1,00 - 3,00 |
| Örtü | **MASTERTOP® BC 361** | 2,50 - 3,00 |
| Finiş təbəqəsi | **MASTERTOP® TC 405 W-UV** rəngli və ya şəffaf | 0,11 - 0,15 |
| Alternativ finiş döşəməsi | Rəngli çınqıl | 2,50 - 3,00 |
| | **MASTERTOP® TC 405 W-UV** | 0,11 - 0,15 |

- İstifadə olunmuş qablamalar bir birinə elə geydirilməlidir ki, bir-birinə yapışsınlar və onların təkrarən istifadə oluna bilməsinin qarşısı alınsın.
- Materialın istifadə qaydaları haqqında daha ətraflı məlumat almaq üçün Məlumat-texniki xidmətlər şöbəsinə müraciət edin.

**Qeyd**

Sistem, məhsullar və onların sərfi haqqında yuxarıda göstərilmiş məlumatlar ideal ətraf mühit şəraitinə, normal hava və işlənən əsasın standart vəziyyətinə nəzərən təqdim edilmişdir və işi verən tərəfindən verilən parametrlərin faktiki hesablanması üçün baza məlumatlar kimi xidmət edir. Mühit şərtlərinin və yaxud işlənən əsasın xassələrinin hər hansı dəyişikliyi sərf miqdarlarında, sistem həllərində və iş verən tərəfindən verilən parametrlərdə müvafiq dəyişikliklərə səbəb ola bilər. Bununla əlaqədar olaraq, sistemi tətbiq etməzdən əvvəl məsləhət görülür ki, **BASF – YKS** şirkətinin və/və yaxud distribütorun mütəxəssisləri mütləq işin aparılması nəzərdə tutulan yerə baxsınlar və iş verənin tapşırığını yerinə yetirmək üçün lazım olan üsul haqqında qərar versinlər və yalnız bundan sonra sistemin tətbiq olunmasına başlansın.

**Məsuliyyət**

Bu sənəddə göstərilmiş bütün məlumatlar elmi və təcrübi biliklərə əsaslanır. «BASF Caspian Yapı Kimyasalları Sanayi MMC» şirkəti yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun yazılı təlimata uyğun olmayaraq istifadə olunduğu və/və yaxud düzgün olmayan qaydada istifadə olunduğu halda «BASF Caspian Yapı Kimyasalları Sanayi MMC.» şirkəti heç bir məsuliyyət daşımır.
Hazırki texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 10/2006.